**Türkiyə Azərbaycanda Xüsusi İqtisadi Zona yaradır**

Türkiyə və Azərbaycan hökuməti respublikamızda Xüsusi İqtisadi Zonanın (XİZ) yaradılmasına dair birgə razılığa gəliblər. Ölkəmizdə səfərdə olan Türkiyənin iqtisadiyyat naziri Zəfər Çağlayan hökumət üzvləri ilə görüşdən sonra bildirib ki, yaxın günlərdə Azərbaycanda XİZ-lərin yaradılması layihəsi dövlət səviyyəsində müzakirə ediləcək və layihənin həyata keçirilməsi üçün qərar veriləcək. Türkiyə ilk layihəni Sumqayıtda həyata keçirmək istəyir və bu məqsədlə hökumət nümayəndə heyətinin gələn ay Sumqayıta səfəri nəzərdə tutulur. Buradakı sənaye kompleksinin vəziyyətini qiymətləndirdikdən sonra Türkiyə tərəfi Sumqayıtda Xüsusi İqtisadi Zonanın layihəsinin texniki-iqtisadi hazırlanmasına başlayacaq.

Qardaş Türkiyə ilə yanaşı, Cənubi Koreya hökuməti də ölkəmizdə XİZ-lərin yaradılmasına böyük maraq göstərir. Ötən həftə İqtisadi İnkişaf Nazirliyi (İİN) ilə Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi arasında imzalanmış «Azərbaycanda Xüsusi İqtisadi Zonaların (XİZ) və Sənaye Şəhərciklərinin İnkişafı Layihəsi» çərçivəsində Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOİCA) ekspertləri ilə keçirilən görüşdə bu məsələ geniş müzakirə mövzusu olub. İİN-nin əməkdaşı Rahim Mürsəlovun bildirdiyinə görə, Koreya hökuməti ölkəmizdə həm XİZ-lərin, həm də sənaye şəhərciklərinin yaradılmasına maraq göstərir. Koreya tərəfi işçi layihənin hazırlanması üçün ölkəmizə 1 milyon dollar həcmində dəstək göstərəcək.

İqliminə və coğrafi üstünlüklərinə görə seçilən Azərbaycanda xüsusi iqtisadi zonaların təşkili, həm də əcnəbi investorların marağındadır. Respublikamızda bu modelin yaradılması zamanı Türkiyə və Koreya ilə yanaşı, ABŞ, Çin, Hindistan, Avstraliya, Birləşmiş Ərəb Əmirliklərinin təcrübəsi daha dərindən öyrəniləcək. Xüsusilə də, Birləşmiş Ərəb Əmirliklərinə səfər edən mütəxəssislər Dubaydakı xüsusi iqtisadi zona ilə tanışlıqdan sonra Azərbaycanda bu cür iqtisadi layihələrin gerçəkləşməsinin üstünlüklərini müvafiq orqanların diqqətinə çatdırıblar.

İqtisadi İnkişaf Nazirliyindən verilən məlumata görə, ekspert rəyi XİZ-lərin yaradılması yeni dövrün tələbləri olaraq meydana çıxan iqtisadi zərurətdir. Xüsusi iqtisadi zona ölkədə sosial-iqtisadi inkişafın sürətləndirilməsi üçün xarici sərmayənin və mütərəqqi texnologiyaların cəlb olunması, qabaqcıl idarəetmə təcrübəsinin tətbiqi və yayılması məqsədilə yaradılan, özünün inzibati sərhədi, xüsusi hüquqi rejimi olan ərazi deməkdir. Müasir dövrdə bir sıra ölkələrdə mövcud sosial-iqtisadi problemlərin həllinə, elmi-texniki nailiyyətlərdən daha geniş və səmərəli istifadəyə və bu ölkələr beynəlxalq əmək bölgüsündə daha fəal iştirakına xüsusi iqtisadi zonalar kimi iqtisadi fəaliyyətin yeni formasının tətbiqi vasitəsilə nail olur. Beynəlxalq təcrübə göstərir ki, Xüsusi İqtisadi Zonalar ayrı-ayrı ərazilərin və bütövlükdə ölkələrin iqtisadi inkişafına güclü təsir imkanına malikdir.

Azərbaycan hökuməti bu cür iqtisadi vasitələrlə ölkəmizdə sahibkarlığın və iqtisadiyyatın inkişafını sürətləndirmək məqsədi daşıyır. Ona görə də, Xüsusi İqtisadi Zonalar yaradılarkən investorlar üçün xüsusi təşviqedici tədbirlər həyata keçiriləcək, bir sıra iqtisadi güzəştlər tətbiq ediləcək. Belə ki, XİZ ərazisində hər hansı bir müəssisənin yaradılması, xidmət və istehsal təyinatlı obyektlərin tikintisi üçün vergi və gömrük güzəştləri tətbiq olunacaq. XİZ-lərdə istər istehsal təyinatlı, istərsə də investisiya təyinatlı avadanlıqların, malların ölkəyə gətirilməsinə gömrük rüsumları tətbiq olunmayacaq və yaxud güzəştli şərtlər əsasında rüsum tutulacaq. Belə ki, Xüsusi İqtisadi Zonada istehsal və ya emal olunan məhsullara, təmir, bərpa-tamamlama işlərinə, nümunələrin sərgisi və digər bu kimi məqsədlərlə respublika ərazisinə müvəqqəti idxal edilən mallara gömrük rüsumları və vergilər şamil olunmayacaq. Gömrük və vergi qanunvericiliyinə əsasən bir sıra hallarda XİZ-lərdən vergi və rüsumlar tutulacaq. Xüsusi İqtisadi Zonanın yaradılmasında bütün rezidentlər, yəni, ölkəmizdə fəaliyyət göstərən sahibkarlar və qeydiyyata alınmış transmilli şirkətlərin nümayəndələri, yəni, xarici ölkələrin iş adamları təmsil oluna biləcəklər.

XİZ-lərin fəaliyyətini gücləndirmək üçün ilk növbədə infrastrukturun inkişaf etdirilməsi də başlıca məqsədlərdən olacaq. Buradakı ərazidə zəruri infrastrukturların, məsələn, yol, elektrik enerjisi, qaz, su təminatı və digər amillərə diqqət gücləndiriləcək. Bu cür iqtisadi zonaların salınmasında liman və aeroportların tikilməsi də mühüm faktorlardan biridir. Qeyd edək ki, artıq ölkəmizdə həmin istiqamətdə mövcud infrastruktur yaradılmaqdadır. Bölgələrdə, Zaqatala, Lənkəran və Gəncədə beynəlxalq tələblərə cavab verən ən modern hava limanı tikilib istifadəyə verilib. Eləcə də, Lənkəranda dəniz limanının yaradılması həyata keçirilir. Bundan başqa, bölgələrdə infrastrukturun

yenidən qurulması, ən müasir texnologiyaların tətbiqi, ekoturizm üçün nəzərdə tutulan layihələrin həyata keçirilməsi gerçəkləşməkdədir.

Xüsusi İqtisadi Zonaların yaradılması sahibkarlığın inkişafını sürətləndirir və qeyri-neft sektorunun inkişafı üçün başlıca meyarlardan birinə çevrilir. Bu sahənin inkişafı ölkədə neftdən kənar sahələrdən daxil olan vəsaitlərin həcminin artmasını stimullaşdırır. Yeni fəaliyyətə başlayan sahibkarlıq subyektlərindən vergi daxilolmalarının həcminin artmasına əlverişli imkanlar yaratmış olur. XİZ-lərdlə vergi güzəştlərinin tətbiqi müəəyən mərhələdə həmin sahələrdən daxil olan vergilərin həcminin az olmasına baxmayaraq yaxın ortamüddətli dövrdə genişhəcmli vergi daxilolmaları bazasının formalaşmasına səbəb olur. Rəqabət qabiliyyətli istehsal və xidmət sahələrinin yaranması ölkədə güclü qeyri-neft sənayesi və aqrar-sənaye komplekslərinin imkanlarını artırmış olur ki, bu da yeni vergitutma sahələri deməkdir.

Elbrus CƏFƏRLİ